# Azərbaycanda idmançıların hüquqları hərtərəfli müdafiə edilir

"Azərbaycanda idmançıların hüquqları hərtərəfli müdafiə olunur. Ölkəmizdə idmanda korrupsiya anlayışı da yoxdur".

AZƏRTAC xəbər verir ki, bunu Avropa Şurasına üzv ölkələrin idmandan məsul nazirlərinin Tbilisidə keçirilən 15-ci konfransında iştirak edən gənclər və idman naziri Azad Rəhimov jurnalistlərə müsahibəsində söyləyib.

"Bununla belə, Azərbaycan tərəfi konfrans çərçivəsində bu mövzularda müzakirələrdə iştirak etməyə hazırdır. Düşünürəm ki, hər bir müzakirə idmanın gələcəyinə və bu sahədəki proseslərin inkişafına böyük təkan verir - deyə A.Rəhimov vurğulayıb.

Nazir bildirib ki, Avropa Şurasına üzv ölkələrin idmandan məsul nazirlərinin idmanda korrupsiya və danışılmış oyunlarla bağlı ilk konfransı on il əvvəl Bakıda keçirilib: "Çox şadıq ki, Avropa Şurasının bu platforması məhz Bakıdan başlayıb. Azərbaycan Avropa Şurasının idmanla bağlı üç konvensiyasına qoşulub. Bunlardan da ən əsası EPAS-dır (Avropa Şurasının İdman üzrə Genişləndirilmiş Hissəvi Sazişi). Azərbaycan beş ölkə arasında bu sənədə qoşulan birinci ölkə olub".

Azərbaycan.- 2018.-17 oktyabr.- S.5.